# Aşıq yaradıcılığı və Azərbaycan mədəniyyəti

Başlığa çıxardığımız bu ifadələri əslində bir-birindən ayırmaq qeyri-mümkündür. Çünki mədəniyyətimiz və aşıq yaradıcılığı bir-birinə o qədər qaynayıb-qarışmışdır ki, onları bəzən ayırmaq belə olmur. Əgər belə demək mümkündürsə aşıq yaradıcılığını çıxsaq mədəniyyətimiz bu qədər dolğun deyil, çox kasıb görünərdi.

Aşıq şerləri mövzu və qayəsinə görə, sözün geniş mənasında, xalqımızın saldığı yeraltı, yerüstü dəfinələr ilə zəngin ərazidə qanlı-qadalı güzəran keçirən, yadelli işğalçılara qənim kəsilən, dosta həlim, acılı-şirinli ömür sürən babaların adət-ənənəsini, psixologiyasını, inam-etiqadını nəsillərdən-nəsillərə ərmağan edən, yaddaşlarda yaşadan, qiyməti heç nəylə ölçülməyən xəzinədir. Bu zəngin xəzinə dövrümüzə qədər təxminən aşağıdakı yollarla gəlib çatmışdır:

1. Ağızdan-ağıza, nəsildən-nəslə keçərək şifahi tərzdə, yaddaşlarda yaşadılma yolu ilə;
2. Arxivlərə düşmüş cünglərdə və divarlarda əlyazmaları şəklində öz əksini tapma yolu ilə;
3. Ustad-dədə aşıqlarımızın fərdi yaradıcılığının dövrü mətbuatda çap olunması yolu ilə.

Şübhəsiz, bütün bu yollar zəngin aşıq yaradıcılığının yaşadılması üçün Azərbaycanda sovet hökuməti qurulana qədər ən əsaslı və yeganə yol olmuşdur. Aşıq yaradıcılığının toplanması, nəşri və tədqiqində keçən əsrdən başlayaraq bu günə qədər demokratik fikirli ziyalılarımız, yazıçılarımız, şairlərimiz, incəsənət xadimlərimiz və alimlərimizin xeyirxah xidmətləri xüsusilə qeyd edilməlidir.

Aşıq yaradıcılığı da yazılı ədəbiyyat kimi poetik forma baxımından rəngarəngdir. Bu formalar, əsasən, üç mənbəyə söykənir:

1. Xalqın qədim adət-ənənələrinə;
2. Klassik yazılı ədəbiyyata;
3. Sazın biləyinə-qoluna bağlanan 19 pərdə və pərdə düzümündə nizam olunan əsas kök məqamlarına, oxunan 190-dan artıq havacatlara.

Bütün dünya xalqlarının ədəbiyyat tarixində olduğu kimi, şer və musiqi ilə nəfəs alan müdrik xalqımızın çoxəsrlik aşıq ədəbiyyatında bəşəri məhəbbətin tərənnümü mühüm yer tutur. Çoxsaylı lirik-epik dastan qəhrəmanlarımızın tərəf-müqabil ürək çırpıntıları, qadın gözəlliyi, əzəli-əbədi təbiətin füsunkarlığı, alp-ərlərin misilsiz şücaəti aşıqların telli sazında, ötkəm avazında rəngarəng şer formalarıyla çeşidlənmiş, bir-birindən mənalı mövzu vermişdir.

Qorqud Dədə, Kərəm, Qərib, Qurbani, Ab-dulla, Abbas Tufarqanlı, Sarı Aşıq, Koroğlu, Xəstə Qasım, Valeh, Ağ Aşıq, Alı, Şəmkirli Hüseyn, Mirzə, Əsəd, Şəmşir, Hüseyn Cavan və saylarını daha çox artıra biləcəyimiz ustad aşıqların yaradıcılığında təmiz, ləkəsiz, boyasız, müqəddəs duyğulu gözəllərimiz xalqımızın ədəb-ərkan, amal ideallarına layiq tərənnüm olunmuşdur.

Aşıqların poetik duyumlarında aşiqin məhəbbət yolunda cəfakeşliyi, sevgilərində sabitliyi, onların iztirab və sevincləri, həyata bağlılıq kimi nəcib hissləri aparıcı motivlərdi. Eşq əhli-lirik qəhrəman aşıqların poetik duyumunda həssas və səmimidir. Bu qəbil könüloxşayan həzin ərmağanlardan bir parasına ümumi tanışlıq üçün diqqət yetirək:

**Abbas deyər: yara qurban yar üçün,**
**Doğra bağrım, kəs ciyərim, yar üçün,**
**Yar odu ki, bu dünyada yar üçün,**
**Yaxa yırta, zülf dağıda, yara üz**

- deyən Abbas Tufarqanlının poetik duyumu hər kəsə tanışdır. Bu nazik mətləbdə lirik qəhrəmanın hiss-həyəcanları bədii boyalarla necə də gözəl ümumiləşdirilmişdir.

Qorqud Dədədən tutmuş üzü bəri bugünkü müasir ustad aşıqlarımızın yaradıcılığında belə tanış olduğumuz epik-lirik qəhrəmanların istər uğurlu, istərsə də uğursuz taleləri, istək və arzuları bizə doğmadır. Onların ülvi istəkləri o qədər güclü və təsirlidir ki, biz özümüzdən asılı olmayaraq onları "allah vergisi" adlandırırıq. Onları həyat yolumuzda özümüzə ideal seçib, kəlamlarını, müdrik sözlərini örnək edib saysız-hesabsız atalar sözləri və məsəllər yaradırıq: "ay ana, mənim dərdim novruz dərdidir", "Kərəm kimi alışıb yandım", "Kərəm kimi tüstüm təpəmdən çıxır", "Bənövşə kimi eşq əlindən boynum buruqdur", "Əsli kimi yarım köç eyləyib" və s.

Aşıq poeziyasında aparıcı motivlərdən biri də köksündə boya-başa çatdığımız əzəli-əbədi təbiətin tərənnümüdür. Saz-söz ustadları təbiətin özünəməxsus əlvan boyalılığını müşahidə edib, başı ağ buludlardan çalmalı dağları, fəsilləri bədii ifadə qüdrəti ilə təsvir edirlər. Qurbani boz ayın təbiətini oxucuya belə təqdim edir:

**Alçaq yerdən duman qalxar,**
**Dağı dolana-dolana.**
**Göy üzünü alar bulud,**
**Mahı dolana-dolana.**

Abbas Tufarqanlı isə baharda hər şeyin oyandığı, cana gəldiyi dövrdə dağlara belə müraciət edir:

**Yenə gəlib bahar fəsli,**
**Süsən, sünbül, məzə çağı.**
**Açılıb güllər, nərgizlər,**
**Bənövşələr, bəzə dağı.**

Mənə çalarlıdır, hər şey təbii və canlı məqamda çeşidlənib. İfadələrin yerli-yerində işlədilməsi bir tərəfdən dağların bahar fəslindəki təbii gözəlliyini, digər tərəfdən ətirli güllərin, çiçəklərin ona verdiyi yaraşığı oxucuya dinamik mənzərələrlə aşılayır, dinləyici təbiəti duyub-yaşayır, onun seyrçisindən daha çox şahidinə çevrilir. "İstanbul səfəri"ndən qayıdar-kən Koroğlu Nigar xanımın - "Koroğlu, Çənlibel budu?" - sualına belə cavab verir:

**Çiskinli dağların başı,**
**Nigar, Çənlibel budu, bu!**
**İgidlər açan savaşı,**
**Nigar, Çənlibel budu, bu!**
**...Çəkib bəzirgan soyduğum,**
**Qəflələri boş qoyduğum,**
**Paşalar gözü oyduğum,**
**Nigar, Çənlibel budu, bu!**

Ulu yurdumuzun alınmaz qalası rəmzində tərənnüm edilən, haqqında yüzlərlə əfsanələr, əsatirlər, nəğmələr qoşulub-düzülən, yadelli işğalçıları çəkiyə çəkib, döyüş meydanında qanına qəltan etmək baxımından Çənlibel ən əlverişli istinadgah, bir-birinə söykənən arxalı, vüqarlı Vətən dağlarımızdır. Belə dağlar tarixin qanlı-qadalı şahidi kimi, zəngin aşıq ədəbiyyatında poetik baxımdan gözəl mənalandırılmışdır. Təsadüfi deyildir ki, Koroğlu Vətən rəmzində dağları sultanlara, xotkarlara, paşalara, xanlara qarşı istinadgah, qalxan, bərə seçmişdir:

**Üst yanı dağ, təpə, dərə,**
**Müxənnətlər düşər girə,**
**Mərd igidə olan bərə,**
**Nigar, Çənlibel budu, bu!..**

Şübhəsiz, xalqımızın qəhrəmanlıq, yenilməzlik rəmzi Koroğlunun vüqarlı, döyüşkən təbiətini yalnız bu nümunə ilə məhdudlaşdırmaq insafsızlıq olardı. Qoç Koroğlunun yadelli işğalçılara, xalqı soyub talayan istismarçılara dediyi hər kəlmə, hər beyt sərrast, kəsərli və məntiqlidir.

Ümumiyyətlə, aşıq yaradıcılığı əzəli-əbədi təbiətin axarlı-baxarlı mənzərəsinin, dağların yalnız coğrafi xəritəsinin sadalanması ilə qurtarmır. Dağların, yaylaqların şəninə deyilmiş bayatıların, gəraylıların, qoşmaların hər bir misrasında bizi düşündürən tarixi hadisələrin, elat adət-ənənələrinin, psixoloji, məntiqi, fəlsəfi mənaməqamları ilə yanaşı, həm də Burla xatun, Banu Çiçək, Nigar, Hürü, Məhbub, Ruqiyyə, Mərcan, Zərnişan, Həcər, Anaxanım kimi ismətli, qeyrətli nənələrimizin uğurlu ailə səadətinin böyüməkdə olan gənc nəsillərin idealına layiq təsdiqini görürük. Dağların sinəsindən çağlayan buz bulaqların kövrək zümzüməsi, bir-birinə könül verən aşiq-məşuqların həzin pıçıltısı sirli qalmır. O, sözün yaxşı mənasında, ustad aşıqların poetik duyumlarında mənalı misralara axıb, telli sazın həlim-həzin avazında məclislərin bir dünya bəzəyinə çevrilir. Cığırlar yollara, arxlar, irmaqlar çaylara, oradan da dəryalara qovuşduğu kimi, aşıq yaradıcılığında da dağlar, yaylaqlar, təbiətin nemətləri, güllər, çiçəklər, ceyranlar, cüyürlər, xınalı kəkliklər, vədə verib ilqar bağlayan aşiq -məşuqlar da dinamik, dramatik səhnələri özündə birləşdirən dastanlara, gözəlləmələrə çevrilir. Biz sehrli təbiətin səsini gah bəmdən dinləyir, gah Kərəm kimi:

**Ərzurumun gədiyinə varanda,**
**Onda gördüm bürüm-bürüm qar gəlir.**
**Lalə dedi: gəl bu yoldan qayıdaq,**
**Qayıtmadım, namusuma ar gəlir,**

- məntiqi ilə kövrələr, gah da Dədə Ələsgərin:

**Axşam-sabah, çeşmə sənin başına,**
**Bilirsənmi, necə canlar dolanır?!**
**Büllur buxaq, lalə yanaq, ay qabaq,**
**Şahmar zülfü pərişanlar dolanır,**

- poetik təsdiqini, Aşıq Əmrah, Hüseyn Saraclı, Aşıq Kamandar, Aşıq Cəlal, Aşıq Əkbər, Aşıq İmran, Aşıq Mahmud, Aşıq Ələsgər, Hüseyn Xaloğlu, Aşıq Hacı, Aşıq Alqayıt, Aşıq İsfəndiyarın və başqalarının dilli-dilavər sazlarının, avazlarının təsiri ilə şuxlaşırıq. Gah Dədə Şəmşirin Dəli dağdan şahin-honqar kimi qıy vurub elin-obanın, təbiətin vurğunu:

**Vurğun sənə gəldi qonaq,**
**Uzun oldu dilin, dağlar!**
**Dərə-təpə ağ geyindi,**
**Açdı əlvan gülün, dağlar!**

- deyə göylərə bülənd olan avazını, gah da dağların gözəlliyindən, şəfasından, səfasından, dost vəfasından söhbət açan Hüseyn Cavanın:

**Nə gözəlsən, səfalısan,**
**Solmasın gülzarın, dağlar!**
**Yaxşı dost tək vəfalısan,**
**Pozulmasın ilqarın, dağlar!**

- poetik anlamından ruhlanırıq, gümrahlaşırıq.

Aşıq da dövrünün, zamanının oğludur. O, tarixin bütün mərhələlərində zəhmətkeş xalqın nümayəndəsi olduğu üçün, əsrlərdən bəri zəhmətsevər adamların arzu və istəklərini təbliğ-tərənnüm etmişdir. Aşıq yaradıcılığında hakim quruluşa nifrət, zəmanədən şikayət dövrün möhürlü xasiyyətnaməsidir:

**Hanı bu ölkədə ədalət, divan,**
**Yox kimsə eyləsin dərdimə dərman,**

- deyə acı-acı şikayətlənən Abbas Tufarqanlı nəhayət, bu narazılığın qanuni nəticəsi olaraq:

**Abbas bu sözləri deyər sərindən,**
**Arxı vurun, suyu gəlsin dərindən,**
**Söz bir olsa, dağ oynadar yerindən,**
**El bir olsa, zərbi kərən sındırar.**

- deyə el bildiyindən, söz bildiyindən söhbət açır. Şahların, xanların, ağaların, bəylərin xalqa etdikləri zülm, xarici işğalçıların talançılığı, hakim siniflərin ədalətsizliyi aşıq yaradıcılığının əsas mövzusu olmuşdur. Bu qədim poetik təsdiqlər həm klassik, həm də müasir aşıqların yaradıcılığında çoxdur.

Qurbani yaşadığı dövrdə şahların qəzəbinə, xalqın çəkdiyi əzaba, çuğulların ara vurmalarına, pis əməllərinə işarə ilə deyir:

**Əgər şahdan bizə qəzəb olmasa,**
**Qəzəb atəşindən əzab olmasa,**
**Ortalıqda çuğul, kəzzab olmasa,**
**Dünya bahar olar, boran, qar olmaz.**

Qurbani yaradıcılığından bu da məlumdur ki, o, bir tərəfdən Şıx oğlunu özünə mürşüd seçib "Mürşüdü kamilin, Şıx oğlu Şahmı", "Getmiş idim mürşüdümə, dərdimə dərman qıla", "Başına döndüyüm şahların şahı", "Səni gördü gözüm, çəkmərəm ahı", "Qurbani der, kim şahına kəc baxır", "Onun kamalına tez zaval olsun", - deyirsə, o biri tərəfdən Mürşüd Şah İsmayılın dövründə baş verən ədalətsizliyə, haqsızlığa qarşı da susa bilmir.

**Qəm yemə, qəm yemə divanə könlüm,**
**Həmişə ruzigar belə dar omlaz!**

- deyən Qurbani nəhayət, öz fikrini "Gözəl" rədifli divanəsində daha açıq söyləyir:

**Zina əhli, bihəyalar şəri-həyani atdılar,**
**Adam oğlu yoldan çıxıb, bir-birini aldatdılar,**
**Qazılar rüşvət alıb, şəriəti satdılar,**
**Bu divan ki, divan deyil, ədalət divan gözəl.**

Bu qəbil etiraz, şikayət motivləri klassik aşıqlarımızın yaradıcılığında, xüsusilə, bayatılarımızda daha boldur. Bayatılardakı qəribqürbətlik, ərəb, tatar-monqol işğalçılarına qarşı deyilmiş nisgil-sızıltı cəmiyyətin qayda-qanunlarından doğan, ictimai bəlaların ümumiləşmiş ağısı, mərsiyəsidir:

**Qarabağı,**
**Günümün qara bağı.**
**Gorbagor olsun ərəb**
**Kor qoydu Qarabağı.**

**Hər aylar,**
**Keçən günlər, hər aylar.**
**Qul qardaşım Bağdaddan**
**Gəncə deyib haraylar.**

Bu qəbil poetik duyumlarda yalnız şahlar, sultanlar, xanlar, bəylər, din xadimləri deyil, hətta Böyük Vətən müharibəsi illərində Hitlerin insanlıq tarixində törətdiyi qanlı cinayətlər daha sarkastik dillə tənqid olunur:

**Eləmi ilan çala,**
**Daraşıb ilan çala.**
**Hitleri yatağında**
**Zəhərli ilan çala.**

**Eləmi, damar-damar,**
**Göy üzü damar-damar.**

**Görüm azğın Hitleri**
**Doğrana damar-damar.**

Böyük Vətən müharibəsi illərində şairlərimiz, yazıçılarımız kimi, aşıqlarımız da bir döyüşçü kimi kimi sazlarını silahla əvəz etdilər. Belə aşıqlardan Aşıq Mirzə, Aşıq Qara, Aşıq Nəcəf, Aşıq Məhəmməd, Aşıq Fətulla, Aşıq Çoban, Aşıq Cəlal, Hüseyn Cavan, Aşıq Mehdi, Aşıq Bəhmən, Aşıq Yusif, Aşıq Həsən, Aşıq İsmayıl, Aşıq Əli, Aşıq Kərim, Aşıq Paşa, Aşıq İsgəndər, Aşıq Salman, Aşıq Həmzə, Aşıq Tağı, Aşıq Məsim və başqaları mənalı döyüş yollarında, sözün əsl mənasında, Koroğlu nəvələri olduqlarını nümayiş etdirmişlər.

Ümumiyyətlə, bu dövr aşıq yaradıcılığında Vətənin müqəddəsliyi aparıcı motivdir:

**Bu misalı deyib ulu babalar,**
**Tərlan oylağına sar gələ bilməz!**
**Axmaq faşist yerisə də sel kimi,**
**Dünya olar ona dar, gələ bilməz!**

- deyə oxucu və dinləyicisini ümumi düşmənə qarşı müharibəyə səsləyən Aşıq Mirzənin son həddə fikrini Aşıq Şəmşir məntiqi cəhətdən belə yekunlaşdırır:

**Daşı çox ağırdır bizim Vətənin,**
**Dəydi, çox kəllələr əzildi getdi.**
**Çingiz xan, Napoleon, bir neçələri,**
**Haqqına yetişib düzüldü, getdi...**

**...Libasdan-libasa girdi bu dünya,**
**Tanıdı namərdi, mərdi bu dünya,**
**Şəmşir, son hökmünü verdi bu dünya,**
**Hitlerin də qəbri qazıldı, getdi.**

İncəsənətin digər sahələri kimi çoxəsrlik aşıq sənətinə də dövlətimiz xüsusi qayğı ilə yanaşır. Bu baxımdan aşıqlar qurultaylarının keçirilməsi, Respublika Aşıqlar Cəmiyyətinin yaradılması, Aşıq Alının 200, Aşıq Ələsgərin 170 illik yubileylərinin təntənəli surətdə keçirilməsi, "Ozan", "İrs" verilişlərinin mavi ekranda təşkili, beş cildlik Azərbaycan dastanlarının, səkkiz adda aşıq şer toplularının, Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Aşıq Ələsgər, Şəmkirli Hüseyn, Molla Cuma, Bozarqanlı Hüseyn, Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq Şəmşir, Hüseyn Cavan, Aşıq Əkbər, Aşıq İmran və başqalarının ədəbi irslərinin ayrı-ayrı illərdə kitab halında çox tirajla çap olunmaları dediklərimizə parlaq misaldır.

**İlqar HÜSEYNOV,**
***ADMİU tətbiqi kultrologiya kafedrasının müdiri***

## Ədəbiyyat

1. H.Araslı. Aşıq yaradıcılığı. B.1960.
2. M.Təhmasib. Azərbaycan xalq dastanları. B.1972.
3. O.Sarıvəlli. Qüdrətli şair, ustad sənətkar. B.1971.
4. Azərbaycan ədəbiyyatı tarixi. I c.B.1960.
5. T.Bünyadov. Əsrlərdən gələn səslər.B.1975.